**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**
**ALİ ATTESTASİYA KOMİSSİYASI**

# ƏMR

№ 3-50/3-1-1-95/2023

**Bakı şəhəri** "20" aprel 2023 il

**Dissertasiya şurasının yaradılması haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin 4.1-ci bəndinə əsasən, "Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası haqqında Əsasnamə"nin 4.2.1-ci yarımbəndini və 4.8-ci bəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. Xəzər Universiteti nəzdində 5802.01 – "Təhsilin təşkili və planlaşdırılması" və 5804.01 – "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi" ixtisasları üzrə pedaqogika elm sahəsində fəlsəfə doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyat nömrəsi FD 2.49 olan Dissertasiya şurası yaradılsın.
2. FD 2.49 Dissertasiya şurasının sədri fizika-riyaziyyat elmləri doktoru, professor İsayev Hamlet Abdulla oğlu, sədr müavini pedaqogika üzrə fəlsəfə doktoru Abaslı Könül Abasqulu qızı, elmi katibi filologiya elmləri doktoru, dosent İsaxanlı İsaxan Abdulla oğlu təyin edilsin.
3. FD 2.49 Dissertasiya şurası 12 nəfərdən ibarət tərkibdə təsdiq edilsin (əlavə olunur).
4. FD 2.49 Dissertasiya şurasının səlahiyyət müddəti 01.11.2024-cü il tarixinədək müəyyən edilsin.
5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Xəzər Universitetinin 17.04.2023-cü il tarixli 02/1221 nömrəli vəsatəti, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 20.04.2023-cü il tarixli (protokol № 3-50/3-2-1-5/2023) qərarı.

Ali Attestasiya Komissiyası
Əsli ilə düzdür
"20" 04 2023 il

**Sədr,**
**professor** **Famil Mustafayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 20 aprel 2023-cü il tarixli 3-50/3-1-1-95/2023 nömrəli əmri ilə təsdiq edilmişdir.

**FD 2.49 Dissertasiya şurasının tərkibi:**

**5802.01 – "Təhsilin təşkili və planlaşdırılması" ixtisası üzrə**

| | | |
|---|---|---|
| 1. | İsayev Hamlet Abdulla oğlu (sədr) | fizika-riyaziyyat elmləri doktoru, professor |
| 2. | Abaslı Könül Abasqulu qızı (sədr müavini) | pedaqogika üzrə fəlsəfə doktoru |
| 3. | Abbasov Akif Nurağa oğlu | pedaqogika elmləri doktoru, professor |
| 4. | Buluç Bekir (Türkiyə Respublikası) | professor |
| 5. | Əliyeva Leyla Xudadat qızı | pedaqogika üzrə fəlsəfə doktoru |
| 6. | Kan Adnan (Türkiyə Respublikası) | professor |

**5804.01 – "Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi" ixtisası üzrə**

| | | |
|---|---|---|
| 1. | İsaxanlı İsaxan Abdulla oğlu (elmi katib) | filologiya elmləri doktoru, dosent |
| 2. | Məmmədov Şahkərəm Mirzəməmməd oğlu | pedaqogika üzrə fəlsəfə doktoru, dosent |
| 3. | Sadıqov Fərahim Balakişi oğlu | pedaqogika elmləri doktoru, professor |
| 4. | Şərifov Hicran İbrahim oğlu | pedaqogika üzrə fəlsəfə doktoru |
| 5. | Xəlilov Vidadi Cəmil oğlu | pedaqogika elmləri doktoru, professor |
| 6. | Gelişli Yücel (Türkiyə Respublikası) | professor |